# Cavid Səfərli - apreldən Vətən müharibəsinədək vuruşdu, Qubadlıda şəhid oldu...

## Xatirə Səfərova: "General olmaq istəyirdi, amma ona daha böyük ad - şəhidlik qismət oldu"



"Oğlum şəhid olandan sonra uzun müddət nəşi tapılmadı"




**Xatirə ananın dərdi dünyaya sığmır, axıtdığı göz yaşları da, yazdığı şeirlər də kədərini ovuda bilmir. Bala dərdi ananı şair edib.**

Balam gəl, balam gəl,
balam gəl deyə.
Sən əbədi həyatdasan
Gələ bilməzsən
Məqamın ucadır,
Ucadan uca.
Sən bu ucalıqdan
enə bilməzsən.
Cənnət sevdalısan
əzəldən bəri.
Cənnət sevgisindən
doya bilməzsən.
Ölumu öldürdün gülüşünlə,
Əbədi dirilik
qazanmısan sən.

Xatirə ana ədəbiyyət yolçusu olan balasına- şəhid baş leytenat Cavid Xaliq oğlu Səfərliyə yüzlərlə şeirlər yazıb. İnsanlığa örnək igid balasını şeirlərinin misraları ilə əzizləyib, oxşayıb.

"Sən əbədiyyət yolundasan, yolun mubarək"-deyir Xatirə ana oğluna. Cavid əbədiyyət yolçusudur, ana!

Cavid Səfərlinin anası Xatirə Səfərova ilə Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 gün-Tarixi zəfər" adlı IV cildlik kitabın I,II, və III cildlərinin İmişli rayonunda təqdimatı ilə bağlı ezamiyyətdə olarkən tanış olub söhbətləşdik. Ana ilə söhbətimizə keçməzdən əvvəl şəhid barədə məlumatı təqdim etmək istəyirik.

Cavid Səfərli 1993-cü il mayın 31-də İmişli rayonunun Əliqulular kəndində anadan olub. 1999-2001-ci illərdə R. Məmmədov adına Əliqulular kənd tam orta məktəbində, 2001-2007-ci illərdə İmişli şəhərində N. Şirinov adına 5 nömrəli tam orta məktəbdə, 2007-2008-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb. 2010-2014-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb.

Cavid Səfərli 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında "leytenant" rütbəsi ilə və zabit kimi xidmət edirdi. 2016-2018-cı illərdə Abşeron rayonunda yerləşən 4-cü Ordu Korpusunda Motoatıcı Briqadanın Bölüyünün Komandiri, 2018-2020-ci illərdə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə Bölüyün Komandiri, 2020-ci ildən isə Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə Taborun Komandiri vəzifələrində xidmət edib. 2017-ci ildən "baş leytenant" rütbəsində xidmət edirdi.

2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdı. Tarixə Aprel döyüşləri olaraq yazılan döyüşlər zamanı Cavid Səfərli Silahlı Qüvvələrinin leytenantı olaraq vuruşurdu. Gecə döyüşləri zamanı Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olundu. Həmin döyüşlərdə Ermənistanın müdafiə naziri Seyran Ohanyan tərəfindən qurulan və Ermənistan Ordusunun "yenilməz Ohanyan xətti" olaraq tanınan müdafiə xətti 40 dəqiqə ərzində darmadağın edildi.

Azərbaycan Ordusunun baş leytenantı olan Cavid Səfərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla savaşıb. Cavid Səfərli oktyabrın 21-də Xocavənd döyüşləri zamanı Düdükçü kəndi istiqamətində şəhid olub.

Xatirə ana danışır ki, oğlunun uşaqlıqdan ən böyük arzusu hərbiçi olmaq idi: "Evdə həmişə hərbi salam verərdi və "mayor Səfərli" deyərdi. Uşaqlıqdan arzusu hərbiçi olmaq idi, biz də onun arzusuna qarşı çıxmadıq, hərbiyə getdi, xidmət etdi, rütbəsinin artmasını çox istəyirdi. Yüksək rütbəli zabit zabit olmaq arzusunda idi. Həm də istəyirdi ki, nümunəvi bir ailə başçısı olsun, savadlı bir xanımla ailə qursun və gözəl balalar tərbiyə etsin. Dedi ki, ana, savadlı xanımla ailə qurmaq istəyirəm ki, uşaqlarımın təlim-tərbiyəsi, təhsili ilə maraqlansın, layiqli övladlar böyütsün, mən hərbiçiyəm həmişə ailəmin yanında olmayacağam. Cavid general olmaq istəyirdi, amma ona daha böyük ad - şəhidlik qismət oldu. Deyirdi ki, Şuşanı da alacağıq, Xankəndiyə də gedəcəyik. Xankəndiyə bayrağı özüm sancacağam. Ona görə də, Xankəndiyə getmək istəyirəm. Çünki oğlumun arzusu ora bayraq sancmaq idi. Qarabağı işğaldan azad edənlərin içində mənim də balamın olmasından qürurlanıram. Həm onun şəhid olduğuna inanıram, həm də inanmıram, həm "var" deyirəm, həm də "yoxdur". Yoxla varın arasında qalmışam. Oğlum haqqında kitab yazmışam, çap olunub...

Şəhid olmaq Cavidin ən böyük arzusu idi. Bir dəfə xalasına deyib mən şəhid olsam görəsən ata-anam nə edər? Xalası ağlayıb deyib ki, Cavid, elə demə, sən ata-anana, qardaş-bacına dayaq olmalısan, onlar sənin yolunu gözləyirlər, sənə çox arxalanırlar. Deyib xala, zarafat edirəm. Arzusunu zarafatla dilə gətirib. Cavid qız uşaqlarını çox sevirdi, dostlarının övladları doğulanda onlara hədiyyə alıb aparırdı. Həddən artıq dostcanlı idi. Hərbi məktəbdə çoxlu dostları vardı. Onların tağımından Məmmədhəsən, Zülfü, Tərlan, Ramal, Allahyar, Sadiq və başqa dostları şəhid oldu. Ramalın bacısı ilə telefonla danışıb, deyib ki, mən Ramalın qisasını alacağam, ölsəm də geri dönməyəcəyəm.

Oğlum şəhid olandan sonra uzun müddət nəşi tapılmadı, sonra tapıldı və o, noyabrın 17-də İmişli rayonunun Əliqulular kəndində dəfn oldu".



Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Cavid Səfərli ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Çağır məni, Oğlum,
gəlim cənnətə.
Axı nə var etibarsız
dünyada?
Əl əldən üzülüb,
göz gözə baxmır.
Arzular, ümidlər
puç olub gedib.

Hər şeyi özünlə
aparıb getdin,
Sənsiz həyatımın
mənası yoxdur.
Nəyimə lazımdır
mənasız həyat.
Bəlkə qayıdasan
mənim xətrimə.

Ana oğlunun qayıtmasını istəyir. Hər gün müjdə gözləyir Xatirə ana. Ona elə gəlir ki, bir gün Cavid qayıdacaq, anasının dərdinə dərman olacaq. Balası yuxularına gəlir, ana yuxudan oyanmaq istəmir heç.

Gecələr həsrət əkib
Gündüzlər kədər yığıram.
Hicranımı bir gül kimi
Dərib dərib qoxlayıram.
Sənə qovuşmaqdan ötrü...

***İradə SARIYEVA***
***İmişli-Bakı***